ədalət.2017.5 iyul.S.4.

**Elçin Şahbazi**

## Azərbaycanım

Mənim gözəl məmləkətim,
xoşbəxtliyim, səadətim,
ucalığım, ülviyyətim,
Vətənim Azərbaycanım.

Sən azadlıq ölkəsisən,
müstəqillik zirvəsisən,
dünyanın sülh nəğməsisən,
Vətənim Azərbaycanım.

Müqəddəs torpağım gözəl,
od yurdum, ocağım gözəl,
üç rəngli bayrağım gözəl,
Vətənim Azərbaycanım.

Canımdan əziz məkanım,
Anam dediyim cahanım,
qurban olsun sənə canım,
Vətənim Azərbaycanım.

## Qadınlar

Nə yazı yazılsa zərif ömrünə,
söyləyər Ilahi şükür bu günə,
körpəsin əskiyə, qəmin qəlbinə
yoruldum demədən bələr qadınlar.

Görəndə kədərli baxışlarını,
tumarlar alnının qırışlarını,
ağlayan kişinin göz yaşlarını,
ağlaya-ağlaya silər qadınlar.

Qayğını, diqqəti, məhəbbəti də,
sevgini, istəyi, səadəti də,
yalanı, nifrəti, xəyanəti də,
hiss edər, anlayar, bilər qadınlar.

Qadınlar anadır, qadınlar bacı,
ömür-gün yoldaşı, ailə baş tacı,
çəkməsin bir qadın həyatda acı,
yaşasın üzləri gülər qadınlar.